


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 102(23.989)

*3 iyun 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında mülki aviasiya sahəsində səmərəli fəaliyyətlərinə görə:

Həsənov Elmar Əbülfəz oğlu
Məmmədov Elmin Əhliman oğlu
Sadiqov Elməddin Kamil oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 2 iyun 2022-ci il*

## "İrəvan Müəllimlər Seminariyası və onun naxçıvanlı məzunları" mövzusunda seminar keçirilib



Naxçıvan Müəllimlər İnstitutunda "İrəvan Müəllimlər Seminariyası və onun naxçıvanlı məzunları" mövzusunda keçirilən seminarı giriş sözü ilə rektor Azad Novruzov açıb. Rektor Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci il 29 dekabr tarixdə "İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd olunması haqqında" imzaladığı Sərəncamın əhəmiyyətindən bəhs edib, Cənubi Qafqazın maarifçilik hərəkatında İrəvan Müəllimlər Seminariyasının xüsusi yeri olduğunu bildirib.

Sonra Beynəlxalq Pedaqoji Akademiyanın həqiqi üzvü, Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi, professor Fərrux Rüstəmovun çıxışı dinlənilib. Bildirilib ki, İrəvan Müəllimlər Seminariyasının 140 illiyinin qeyd edilməsi ilə bağlı ölkə Prezidentinin imzaladığı Sərəncam mühüm elmi-pedaqoji, siyasi-ideoloji, mədəni-mənəvi əhəmiyyət kəsb edir. Bu Sərəncam İrəvan mahalında azərbaycanlıların minillərboyu yaratdığı tarixi irsə sahib çıxmaqla yaddaşımızı bərpa etməyə və strateji hədəflərə nail olmağa yönəlib.

Diqqətə çatdırılıb ki, 1881-ci ilin noyabr ayında fəaliyyətə başlayan İrəvan Müəllimlər Seminariyası məzunları sırasında ölkənin dörd bir tərəfindən, o cümlədən də Naxçıvandan olan, xalqımızın bir çox tanınmış şəxsiyyətləri və dövrünün görkəmli ziyalıları var. Naxçıvan məzunlarından Həmid bəy Şahtaxtinskinin, İbrahim Şahtaxtlının, Tağı bəy Səfiyevin, İbrahim Səfinin, Mirzə Bağır Əliyevin və başqalarının adlarını çəkmək olar ki, onların Naxçıvan təhsilinin inkişafında əvəzsiz xidmətləri olmuşdur.

Naxçıvan Müəllimlər İnstitutuna dəvət olunduğu üçün məmnunluq hissini ifadə edən professor Fərrux Rüstəmov sualları cavablandırıb, institutun kitabxana fonduna müəllifi olduğu 6 adda 25 kitab hədiyyə edib.

İnstitutun rektoru Azad Novruzov "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil olmuş "Pedaqoji fikir tarixindən" kitabını və xatirə hədiyyəsini ona təqdim edib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

## Yeni Azərbaycan Partiyasının gənc üzvləri ilə görüş olub

Sədərək rayonunda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin təşkilatçılığı ilə keçirilən görüşdə Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov bildirib ki, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransı muxtar respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olub. Qeyd edilib ki, konfransda partiya üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirilib. Həmin vəzifələrin yerinə yetirilməsi hər zaman diqqət mərkəzində saxlanılır.



Vurğulanıb ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı da hər zaman fəaliyyətində gənclərin hərtərəfli inkişafı üçün geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun formalaşdırılmasına xüsusi diqqət yetirib. 24 ərazi partiya təşkilatını özündə birləşdirən təşkilatın 1994 üzvü var ki, onlardan 461 nəfərini məhz gənclər təşkil edir.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev vurğulayıb ki, bu gün ümummilli liderimiz Heydər Əliyevin qoyduğu tarixi ənənələr Yeni Azərbaycan Partiyası tərəfindən sədaqətlə həyata keçirilməkdədir. Beynəlxalq nüfuza malik iqtidar partiyası kimi son illər keçirilən prezident, parlament və bələdiyyə seçkilərində əldə etdiyi uğurlar onu deməyə əsas verir ki, partiya böyük siyasi nüfuz və xalqın etimadını qazanıb. Partiyanın VII Qurultayından, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının VI konfransından bəhs edən Cəbi Quliyev bildirib ki, artıq ölkəmizin həyatında yeni inkişaf mərhələsi başlayıb. Bu baxımdan Ali Məclis Sədrinin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı da qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini müasir tələblərə uyğun olaraq davam etdirir. Bu prosesdə partiyamızın gənclərinin də üzərinə mühüm vəzifələr düşür.

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin sədri Arzu Qasımov muxtar respublikada uğurlu dövlət gənclər siyasətinin bəhrələrindən, gənclərə göstərilən yüksək dövlət qayğısından danışıb. Vurğulanıb ki, onların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunmasını şərtləndirməklə yanaşı, öz potensiallarını sərbəst, səmərəli şəkildə reallaşdırmaları da yol açır. Yaradılan bu şərait Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyinin fəaliyyətinə də öz müsbət təsirini göstərib. Qeyd edilib ki, bu gün Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı üzvlərinin 23 min 594 nəfərini gənclər təşkil edir. Təşkilata üzv olan gənclər müxtəlif sahələrdə çalışır və fəaliyyət göstərdikləri sahədə daim fərqlənirlər.

Görüşdə birliyin yeni formalaşmış heyəti, fəaliyyət istiqamətləri, o cümlədən həyata keçirəcəyi tədbir və layihələr, gənclərin könüllü çalışmaları üçün yaradılan şəraitdən, Gənclər Birliyinin əsas fəaliyyət istiqamətlərindən bəhs olunub.

Arzu Qasımov göstərilən yüksək etimada, gəncliyin inkişafı sahəsində həyata keçirilən tədbirlərə görə gənclər adından dövlətimizə minnətdarlıq edib.

Sonra çıxışlar olub. Diskussiya şəklində davam edən görüşdə gəncləri maraqlandıran suallar cavablandırılıb, onların təklif və ideyaları ətrafında fikir mübadiləsi aparılıb.

**Xəbərlər şöbəsi**

*Dövlət proqramı icra olunur*

## Xalçaçılığın inkişafına dövlət qayğısı ildən-ilə artırılır



*Xalq tətbiqi sənətinin mühüm qolu olan xalçaçılığın xalqımızın milli mədəniyyət tarixində özünəməxsus yeri var. Ümummilli lider Heydər Əliyev respublikamıza rəhbərlik etdiyi dövrlərdə mədəni irsin, o cümlədən xalçaçılığın inkişafına xüsusi qayğı göstərmişdir.*

Bu siyasəti uğurla davam etdirən Prezident cənab İlham Əliyevin 2016-cı il 5 may tarixli Sərəncamına əsasən "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmışdır. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bölgələrdə "Azərxalça" ASC-nin filialları açılmışdır. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir. Bunlar Azərbaycan dövlətinin xalçaçılıq sənətinə olan dəstəyinin, xalçaçılığın həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirilməsinin önəmli nümunələridir.

Bu qədim el sənətinə müasir yanaşma Naxçıvan Muxtar Respublikasında da xalçaçılığın inkişaf tarixində yeni səhifələr açmaqla onun daha intensiv inkişafına misilsiz töhfələr vermişdir. Naxçıvanda xalçaçılığın inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər çərçivəsində "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında və Cəlilkənd buxanasında yerləşən xalçaçılıq emalatxanasında xalça toxunması xalçaçılıq ənənəsinin qorunub yaşadılmasına və gənc xalçaçılar nəslinin yetişməsinə stimul yaradır. Sədərək rayonunda xalçatoxuma müəssisəsinin yaradılması, xalçaçılıq sahəsi üzrə müdavimlərin yetişdirilməsi də bu qədim sənətin yaşadılmasına göstərilən böyük qayğının ifadəsidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamları ilə təsdiq olunan "Naxçıvan Xalça və İplik İstehsalı Müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması və "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət proqramı" xalqımızın milli dəyərlərindən sayılan xalçaçılığın yaşadılmasına, milli mədəniyyətimizin daha geniş şəkildə təbliğinə, eləcə də özəl sektora öz töhfəsini verməkdədir. Dövlət proqramına müvafiq olaraq ötən il ərzində "Naxçıvan Biznes



Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında 9, Cəlilkənd buxanasında isə 4 xalça toxunmuş, həmçinin 9 xalçanın satışı həyata keçirilmişdir. Hazırda Xalq Yaradıcılığı Emalatxanasında 2, Cəlilkənd buxanasında isə 1 ədəd xalçanın toxunuşu davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il oktyabrın 16-da Kamil Əliyevin 100 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında qeyd olunması ilə bağlı Sərəncamına müvafiq olaraq Xalq Yaradıcılığı Emalatxanasında və Cəlilkənd buxanasında Azərbaycan xalçaçılıq məktəbinin xüsusiyyətlərini özündə cəmləşdirən Kamil Əliyevin çeşnləri əsasında xalçaların toxunması üçün kadrların hazırlanması işinə mühüm töhfələr vermişdir.

Xalçaçılığın inkişafına digər mühüm bir istiqamət isə kadr hazırlığıdır. Toxucu kadrların hazırlanması üçün "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin Xalq Yaradıcılığı Emalatxanasına mütəmadi olaraq müdavimlər qəbul edilmiş, həmçinin bu məqsədlə peşə kurslarının keçirilməsinə dair tədris planı hazırlanmışdır. Cari ilin ötən dövrü ərzində Xalq Yaradıcılığı Emalatxanasında "Xalçaçılıq sənətinin öyrənilməsi" mövzusunda kurs təşkil olunmuş və kursu müvəffəqiyyətlə bitirən müdavimlərə sertifikatlar təqdim edilmişdir.

Naxçıvanda xalçaçılığın inkişafı ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 15 fevral tarixli "Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" Sərəncamı da bu istiqamətdə görülən işlərin davamlılığını təmin etmişdir. Sərəncama əsasən Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlərin icrasına başlanılmış, 2021-ci ildə "Azərxalça" ASC tərəfindən Naxçıvan şəhərində xalça istehsalı müəssisəsinin, yun və boyaq bitkilərinin tədarükü məntəqəsinin yaradılması başa çatdırılmışdır.

Yeni xalçaçılıq müəssisəsi bütün zəruri xammal və ləvazimatlarla təmin edilmiş, xalça istehsalı emalatxanalarında 150 toxucunun, 14 inzibati-təsərrüfat işçisinin çalışması üçün müasir iş şəraiti yaradılmışdır. Emalatxanada müxtəlifölçülü 43 dəzgahda Naxçıvan xalçaları toxunur. 2021-ci ildə və cari ilin ötən dövrü ərzində müəssisədə 218 kvadratmetr ölçüdə 140-dan çox xalça toxunmuşdur. Muxtar respublikada açılan xalçaçılıq müəssisəsi xalça toxumaqla məşğul olan qadınların əmək bazarına inteqrasiyasına yeni imkanlar yaratmışdır.

*Muxtar respublikada xalçaçılıq sənətinin inkişafı sahəsində görülən işlər, yaradılan şərait xalq tətbiqi sənətinin bu növünün daha da zənginləşdirilərək gələcək nəsillərə çatdırılmasına imkan verir.*

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



## Gigiyena və epidemiologiya sahəsinə göstərilən diqqət əhalinin sağlamlığının qorunmasında mühüm rol oynayır

*Muxtar respublikamızda əhalinin sağlamlığının qorunması daim diqqətdə saxlanılır, bu sahədə mühüm tədbirlər həyata keçirilir. Buna gigiyena və epidemiologiya tədbirlərini misal göstərmək olar. Bu gün diyarımızın sakinləri sanitar-gigiyenik qaydalara əməl etməklə nəinki öz sağlamlıqlarını, ətrafındakıları da görünməz təhlükələrdən qoruyurlar. Gigiyena və epidemiologiya sahəsinə göstərilən diqqətin bir nümunəsi də bir neçə ildir, dünyada yayılan virusun muxtar respublikada pandemiyaya çevrilməməsi oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 15 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “Naxçıvan Muxtar Respublikasında gigiyena və epidemiologiya sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı 2022-2025-ci illər üzrə Dövlət Proqramı” isə əhalinin sağlamlığının qorunması və gigiyena və epidemiologiya tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi istiqamətində növbəti addımdır.*

Hazırda muxtar respublikamızda dövlət sanitariya nəzarəti Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi və onun 7 rayon şöbəsi tərəfindən həyata keçirilir. Bu mənada, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsi də fəaliyyətini günün tələbləri səviyyəsində qurub.

Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin müdiri Hüseyn Əzimovla həmsöhbət olduq.





Həkim əvvəlcə gigiyena və epidemiologiya sözlərinə aydınlıq gətirərək deyir: – Gigiyena sağlamlığın əsas şərti olmaqla, müxtəlif xəstəliklərin profilaktikasını öyrənməklə sağlamlığı qorumağa və ömrü uzatmağa kömək edir. Epidemiologiya yoluxucu xəstəliklərin yaranması, yayılması və profilaktikasının qanunauyğunluqlarını öyrənir.

Şöbənin əsas fəaliyyət istiqamətlərindən danışan Hüseyn həkim bildirdi ki, ötən il noyabrın 11-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirakı ilə Culfa şəhərində yeni inzibati bina istifadəyə verilib, burada Gigiyena və Epidemiologiya Şöbəsi üçün də hərtərəfli iş şəraiti yaradılıb. Şöbə bakterioloji və parazitoloji laboratoriyalar, işin keyfiyyətini artırmaq üçün nitratometr, radiasiya ölçmək üçün dozimetr, PH-metr, termohiqrometr, binokulyar mikroskop, quruducu şkaf, soyuducu və digər köməkçi tibbi ləvazimatlarla təmin edilib. Həmçinin şöbəyə dezinfeksiya tədbirlərinin daha keyfiyyətlə icra olunmasında vaxt itkisinin qarşısının alınması üçün 8 nəfərlik işçi heyətinin istifadə edə biləcəyi “Changan” markalı avtomobil verilib. Yaradılan müasir şərait qarşısında bizim əsas vəzifəmiz insanların yaşadığı mühit faktorlarının öyrənilməsi, onların sağlamlığına təhlükəli və zərərli təsirlərin qarşısının alınmasından, müəyyən edilməsindən və ləğvindən ibarətdir. Bu sahədə digər müəssisələr, idarələr, təşkilatlar və vətəndaşlarla qarşılıqlı əlaqədə olmaqla profilaktik, gigiyenik, əks-epidemik və tibbi-sosial tədbirlərin yerinə yetirilməsi və sanitar nəzarətin təşkilini həyata keçiririk. Şöbədə bakterioloji və parazitoloji laboratoriyalar vardır ki, burada həkim bakterioloq və bakterioloji laborant, həkim-parazitoloq və laborant işləyir. Onlar suyun, havanın, torpağın, qanın bakterioloji müayinələrini, parazitar xəstəliklərin (malyariya, leyşmanyoz, qurd xəstəlikləri və sair) qarşısının alınması üçün profilaktik tədbirlər aparırlar.

Bu il fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirədə Ali Məclisin Sədri digər zəruri məsələlərlə yanaşı, dezinfeksiya işlərinin aparılması, sanitar-epidemioloji qaydalara riayət olunmasına nəzarət ilə də bağlı mühüm tapşırıqlar vermişdir. “Şöbə tərəfindən ötən il və bu ilin ötən dövrü ərzində hansı dezinfeksiya işləri həyata keçirilib?” – sualımızın cavabında Hüseyn həkim bildirir: – Bəhs olunan dövrdə rayonun istər kənd, istərsə də şəhər yaşayış məntəqələrində ictimai yaşayış binalarının blokları, zirzəmiləri, ətrafları və parklardakı uşaq əyləncə-oyun yerləri, müəssisə və binalarda dezinfeksiya-dezinseksiya tədbirləri aparılıb, səhiyyə maarifi işləri təşkil edilib. Qeyd edim ki, 2021-ci il ərzində 3638 obyektdə 1081600 kvadratmetr sahədə koronavirusa qarşı dezinfeksiya işləri, həşəratlara qarşı 243 obyektdə 67300 kvadratmetr sahədə dezinseksiya işləri aparılıb. Bakterioloji laboratoriyada kəskin bağırsaq xəstəliklərinə görə gen florasına görə, parazitoloji laboratoriyada helmintoz xəstəliyinə görə 1043 nəfər müayinə edilib. Nəzarətimizdə olan obyektlərdən bakterioloji müayinə üçün 1352 yaxma götürülərək analizdən keçirilib. Müxtəlif müəssisələrdə 912 dəfə monitorinq, 27 dəfə səhiyyə maarifi işi aparılıb.

Müsahibim qeyd edir ki, 2022-ci ildə də bu tədbirlər davam etdirilib: – Novruz bayramı ərəfəsində təmizlik-abadlıq işləri aparılıb, dezinfeksiya tədbirləri diqqətdə saxlanılıb. Martın 1-dən etibarən, xüsusən də əhalinin sıx olduğu yerlərdə – bazar, mədəniyyət müəssisələri, bayram günlərində isə uşaq musiqi və ümumtəhsil məktəbləri, idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri mərhələli şəkildə dezinfeksiya olunub. Həmçinin bu ilin ötən dövrü ərzində də tibbi maarifləndirmə işləri davam etdirilib. Cari ilin 5 ayı ərzində 1844 obyektdə 399800 kvadratmetr sahədə dezinfeksiya, həşəratlara qarşı 145 obyektdə 11250 kvadratmetr sahədə dezinseksiya işləri aparılıb. Kəskin bağırsaq xəstəliklərinə görə 865 laborator, müxtəlif xəstəliklərə görə 856 parazitoloji müayinə edilib. Müxtəlif müəssisələrdə 156 dəfə sanitar-gigiyenik nəzarət monitorinqi, 29 dəfə səhiyyə maarifi işi təşkil olunub və müvafiq təkliflər verilib. Zoonoz yoluxucu xəstəliklərə qarşı (bruselyoz, quduzluq və sair) tədbirlər rayon baytarlıq idarəsi ilə qarşılıqlı əlaqələr şəraitində birgə aparılıb. Dövlətimizin bizə göstərdiyi qayğıdan səmərəli istifadə edərək bundan sonra da işlərimizi sağlamlığın qorunub saxlanılmasına həsr edəcəyik, – deyə həkim əlavə etdi.

Ötən il iyunun 24-də Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binasının istifadəyə verilməsi mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikada sanitar-epidemioloji vəziyyətin qorunub saxlanılmasında bir sıra tapşırıqlar verərək demişdir: “***Gigiyena və epidemiologiya sahəsində yeniliklərin tətbiqi bütün dövrlər üçün vacibdir. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzi bundan sonra da fəaliyyətini günün tələbləri səviyyəsində qurmalı, fəsillərə uyğun fəaliyyət proqramı hazırlanaraq təsdiq olunmalı, yerlərdə mütəmadi dezinfeksiya işləri aparılmalıdır. İxtisaslı kadr təminatı işin keyfiyyətini artıran başlıca amildir. Gigiyena və Epidemiologiya Mərkəzi Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin tələbələrini praktik fəaliyyətə cəlb etməli, gənc əməkdaşlar işə götürülməli, kurslar təşkil olunmalıdır. Muxtar respublikada yoluxucu və parazitar xəstəliklərlə bağlı vəziyyət sabitdir. Lakin buna baxmayaraq, Səhiyyə Nazirliyi və Gigiyena və Epidemiologiya Mərkəzi mütəmadi olaraq yoluxucu və parazitar xəstəliklərin profilaktikasını aparmalı, müayinə və monitorinqlər davamlı xarakter daşımalıdır. Dövlət sanitariya nəzarəti o zaman nəticəli olur ki, əhali bu işə dəstək verir. Muxtar respublikada sanitariya mədəniyyəti ilə bağlı maarifləndirici tədbirlər davam etdirilməli, sosial gigiyenanın əhəmiyyəti insanlara düzgün çatdırılmalıdır...***”

Şübhəsiz ki, bu sahədə qarşıya qoyulan vəzifələrin Culfa rayonunda da icrası bundan sonra da insanların yaşayış mühitini və həyat fəaliyyəti şəraitini sağlamlaşdırmağa, yüksək sanitariya mədəniyyətinin formalaşmasına əlverişli şərait yaradacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**

*Ailə təsərrüfatlarımız*

## Zəhmət və qayğı bir olarsa



Onlarla ilk tanışlığım bu il keçirilən “Kətə” festivalında oldu. Festivala gətirdiyi məhsulların çeşid çoxluğu onun gənc olmasına baxmayaraq, bacarıqlı bir təsərrüfatçı fəaliyyətindən xəbər verirdi. Dürdanə Cabbarova əslən Sabirabad rayonundandır. O,10 ildən artıqdır ki, Sədərək rayonunun Dəmirçi kəndinə gəlin gəlib. 6 uşaq anasıdır. Dürdanə altı uşağa baxmaqla bərabər, həm də yoldaşının yaratdığı ailə təsərrüfatının işlərində ona yaxından kömək edir. Bu günlərdə ailənin qonağı olduq.

Dürdanə ilə söhbətimizdə bildirdi ki, ötən illərdə özünüməşğulluqla bağlı müraciətlərinə müsbət cavab olaraq xəmir məmulatlarının hazırlanması üçün avadanlıqlar verilib. Xəmir qarışdıran maşın və peraşqi, qutab bişirmək üçün ləvazimatlar işimi xeyli asanlaşdırıb.

Müsahibim deyir ki, ailə qurduqdan sonra bir neçə il Bakı şəhərində yaşayıblar. Sonra Dəmirçiyə qayıdıb burada məskunlaşıblar. Gələn gündən Naxçıvanı çox sevdiyini xüsusilə vurğulayan Dürdanə söhbətinə belə davam etdi:

– Ailə qurduqdan sonra ilk dəfə buraya gələndə fikirləşirdim ki, məktəbi, səhiyyə ocağı, ya da heç bir şəraiti olmayan, yağış yağanda küçələrində yeridikcə palçığa batacağım bir kəndə gedirəm. Düşünürdüm ki, təzə mühit, bələd olmadığım insanların yaşadığı yerdə, yəqin ki, mənim üçün çətin olacaq. Amma tam, əksinə, elə ilk gündən insanların səmimiliyi, qonaqpərvərliyi, qəsəbə timsalındakı kənd məni bu yurda sıx tellərlə bağladı. Həyətyanı torpağımızı əkib-becəririk. Təndirdə dastana da yapıram, lavaş da. Övladlarımın ən böyüyü 11 yaşlı qızımdır. Hər hansı bir işlə məşğul olanda anam kiçikyaşlı övladlarıma baxır, qızımsa dərslərini hazırlayandan sonra mənə təndirdə çörək yapanda, qutab bişirəndə gətir-götür işlərində köməklik göstərir. Oğlum da onun kimi. Hər bir valideynin ən əsas arzularından biri övladını təhsilli görməkdir. Ona görə də övladlarımın dərslərinə həmişə hazır olmalarına diqqət yetirirəm. Ən əsası isə onları zəhmətə alışdırıram ki, zəhmətkeş böyüsünlər. Zəhmətlə qazanılan uğur daha şirin olur.

Ailə təsərrüfatının başçısı Zaur Cabbarov deyir ki, təsərrüfatı qurduqdan sonra dövlət dəstəyindən yararlanmışıq. Minnətdarlıq edərək bildirir ki, ailəsinə həmişə qayğı ilə yanaşılır. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin işçiləri tez-tez bizimlə əlaqə yaradır, gün-güzəranımız ilə maraqlanırlar. Zaur Cabbarov bir neçə aydan sonra çoxuşaqlı ailə kimi dövlət tərəfindən hər ay maddi köməkliklə də təmin ediləcəklərini diqqətimizə çatdırır. Deyir ki, ailə təsərrüfatında hazırladıqları un məmulatlarından başqa, təndirdə tərəvəzlərin və ətlərin, balığın kababını, sacda ciyər qovurması hazırlayırlar. Bu il Naxçıvan şəhərində təşkil olunan “Kətə” festivalında da məhsulları ilə iştirak ediblər. Sacda ciyər qovurması, pencər kətələri və digər məhsulları müştərilər tərəfindən razılıqla qarşılanıb.

Biz ailədən ayrılanda onlar köməkləşib Naxçıvan şəhərində keçiriləcək “Göycə” festivalına hazırlıq görürdülər. Dürdanə xanım xəmir yoğurur, həyat yoldaşı Zaur təndir kababı bişirmək üçün hazırlıq görür, böyük uşaqlar onlara gücləri çatdığı qədər kömək edir, evin ağbirçəyi isə sonbeşik nəvəsinə baxırdı.

Atalarımız “Güc birlikdədir”, – deyiblər. Ailə bir olduqdan sonra uca dağları belə aşmağı bacarar. Gün gələcək bu altı uşağın hərəsi bir sənətə yiyələnəcək. Biri hərbçi, digəri həkim, o birisi müəllim və ya sadə əkinçi, maldar, dülgər peşəsinə yiyələnəcək. Hansı sənəti seçirlər-seçsinlər, onlar zəhmətin nə demək olduğunu zəhmətkeş valideynlərindən öyrənib layiqli övladlar kimi böyüyəcəklər. Müstəqil ölkəmizin qədim, gözəl diyarı Naxçıvanımızın dövlət qayğısı ilə böyüyən digər övladları kimi.

**Ramiyyə ƏKBƏROVA**

## “Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödənişlərin cari vəziyyəti və strateji istiqamətlər” mövzusunda tədbir keçirilib



“2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram”a, həmçinin Azərbaycan Respublikası Mərkəzi Bankının “2021-2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyası”na uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin təşkilatçılığı ilə “Naxçıvan” Universitetinin müəllim və tələbə kollektivi üçün maarifləndirici tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan “Naxçıvan” Universitetinin rektoru, dosent Nurlana Əliyeva tədbirin məqsədinin universitetin müəllim və tələbə heyətinin ödəniş alətlərindən istifadəyə olan marağını daha da artırmaq, nağdsız hesablaşmaların artırılmasına və alıcılıq mədəniyyətinin daha da yüksəlməsinə təkan vermək, onların elektron ödəniş xidmətlərindən daha aktiv istifadəyə təşviq edilməsi olduğunu bildirib.

Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev muxtar respublikada 2013-cü ildən rəqəmsal ödənişlərin inkişafı ilə bağlı bu günədək 3 Dövlət proqramının icra olunduğunu, ödəniş alətləri infrastrukturunun genişləndirildiyini, cəmiyyətdə nağdsız ödənişlərə marağın cəlb edilməsi məqsədilə müxtəlif dövrlərə aid dövlət qurumları ilə birgə maarifləndirici tədbirlərin, stimullaşdırıcı kampaniyaların keçirildiyini və nəticə etibarilə, nağdsız dövriyyənin həcminin əhəmiyyətli dərəcədə artdığını diqqətə çatdırıb.

Tədbirə videoformatda qoşulan Azərbaycan Respublikası Mərkəzi Bankının baş direktoru Fərid Osmanov ölkə ərazisində ödəniş sistemlərinin sabit, etibarlı, təhlükəsiz fəaliyyətinin təşkili, əlaqələndirilməsi, tənzimlənməsi və nəzarəti, habelə müasir trendlər nəzərə alınmaqla davamlı olaraq inkişaf etdirilməsinin Mərkəzi Bankın əsas fəaliyyət istiqamətlərindən biri olduğunu qeyd edib. Mərkəzi Bankın aidiyyəti dövlət qurumları, beynəlxalq təşkilatlar və bank sektoru ilə birlikdə ölkədə elektron ödəniş sistemlərinin inkişafı və nağdsız ödənişlərin genişləndirilməsi istiqamətində davamlı olaraq ölkəmiqyaslı layihələr reallaşdırdığını və strateji təşəbbüslər həyata keçirdiyini vurğulayıb.

Tədbirdə Azərbaycan Respublikası Mərkəzi Bankının Milli ödəniş sisteminin inkişafı və nəzarəti şöbəsinin əməkdaşı Xəyaləddin Tağıyevin, Azərbaycan Banklar Assosiasiyasının ödəniş sistemləri və rəqəmsal bankçılıq üzrə ekspert qrupunun rəhbəri, həmçinin “Bank of Baku” Açıq Səhmdar Cəmiyyətinin ödəniş sistemləri departamentinin direktor müavini Tamerlan Rüstəmovun “Rəqəmsal ödənişlərdən istifadənin üstünlükləri və mövcud imkanlar”, “Ödəniş kartları və onlara əməliyyatlar” mövzularında çıxışları dinlənilib. Həmçinin Naxçıvan Muxtar Respublikasında bank sektorunun cari vəziyyətini xarakterizə edən videoformatda təqdimat izlənilib.

Sonda universitetin nağdsız ödənişlərin həyata keçirilməsində fərqlənən 2 müəllim və 2 tələbəsinə “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyəti tərəfindən hədiyyələr təqdim edilib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

# Dövlət dəstəyi və təşəbbüskarlıq bir yerdə olanda...

## Muxtar respublikada kənd turizmi inkişaf etdirilir



*Turizm müasir dövrdə ən geniş yayılmış məşğuliyyət sahələrindəndir. Məlum pandemiya səbəbindən son bir neçə ildə bu sahənin inkişafında bütün dünyada axsamalar olsa da, artıq mövsümə uyğun olaraq turizm hərəkətliliyinin başlandığını hər yerdə müşahidə etmək mümkündür. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı daim diqqət mərkəzində saxlanılır, bu istiqamətdə çoxsaylı addımlar atılır. Muxtar respublikada turizmin əhəmiyyətini və bu sahədə görülən işləri yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir:* ***“Sabitlik, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları və yaradılan şərait Naxçıvanda turizmin inkişafının şərtlərindən əsas amillərdir. Muxtar respublikanın turizm potensialı bura səfər edən xarici ölkə vətəndaşları tərəfindən yüksək qiymətləndirilir...”***

Qeyd edək ki, son illərdə muxtar respublikada ən geniş yayılmış turizm növlərindən biri də kənd turizmidir. Xüsusilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması haqqında” 2018-ci il 29 noyabr tarixli Sərəncamından sonra muxtar respublikada kənd turizminin potensialından istifadə getdikcə daha artıq maraq dairəsinə çevrilməyə başladı. Elə bu marağın nəticəsidir ki, bu gün artıq muxtar respublikada turizmin inkişafına öz töhfəsini vermək istəyən insanlar da az deyil. Onlardan biri də Culfa rayonunun Ləkətağ kəndi sakini Dünyamalı Hacıyevdir. O, bir neçə aydır ki, kənddə Əlincə çayının keçdiyi ərazidə – çay sahilində kiçik bir istirahət kompleksi inşa edərək bura yolu düşən yerli və əcnəbi turistlərə müxtəlif xidmətlər göstərir. Elə müsahibimizlə söhbətimiz də kəndin turizm potensialı, buradakı istirahət kompleksi və gələcək perspektivlər haqqında oldu.

*– Dünyamalı müəllim, istərdim əvvəlcə Ləkətağ kəndinin turizm baxımından əhəmiyyətini qiymətləndirəsiniz. Turistlər hansı səbəblərə görə istirahət üçün buranı seçə bilərlər?*

– Ləkətağ Culfa rayonunun ucqar dağ kəndlərindən biridir. Təmiz havası, yerləşdiyi maraqlı coğrafiyası ilə kənd bura gələn qonaqların hər birinin diqqətini özünə cəlb edir. Əlincə çayının kəndin düz ortasından axaraq keçməsi bu gözəlliyi daha da artırır. Kəndimizdə aparılan tikinti-quruculuq tədbirləri isə Ləkətağın təbii gözəlliyinə əlavə rəng qatmaqla yanaşı, bu yaşayış məntəqəsinə gediş-gəlişi də asanlaşdırıb, sakinlərin müəyyən xidmətlərdən istifadə etməsinə imkan verib. O ki qaldı turistlərin bu kəndə gəlmə səbəblərinə, qeyd etməliyəm ki, bizim kəndə gələnlərin əksəriyyəti təmiz hava, sərinlik, təbii gözəllikləri görmək və sair baxımdan bu istiqaməti seçir. Onu da vurğulayım ki, son bir neçə ildə gələnlərin sayı xeyli artıb. Bildiyiniz kimi, bu gün artıq muxtar respublikanın daxili turizmində bir hərəkətlilik var. Xüsusilə şənbə-bazar günləri yerli sakinlərin kəndlərimizə axını daha çox olur. Elə kənddə turizm xidmətinin yaradılması ideyası da buradan qaynaqlandı.

*– Yəni insanların istirahət məqsədilə bura üz tutduqlarını gördünüz və bu da sizi yeni xidmət sahəsi açmağa həvəsləndirdi.*

– Bəli. Gördüm ki, istirahət məqsədilə gələnlər var, lakin onların haradasa bir oturmaq, müəyyən xidmətlərdən istifadə etmək imkanları yoxdur. Bunu da deyim ki, son bir neçə ildə kəndimizdə turizmin inkişafında əsas təkanlardan biri də, vətəndaşlara məxsus evlərin kirayə verilməsi oldu. Bütün bunlar isə mənə daha da ilham verdi ki, bu işə başlayım.

*– ...Və ilk olaraq haradan başladınız?*

– Hazırda istirahət üçün nəzərdə tutduğumuz bu obyektin ərazisinin bir hissəsi başqa bir vətəndaşa məxsus idi. Dörd yüz kvadratmetrlik həmin ərazini ondan satın aldıq, digər yerlər isə gördüyünüz kimi, nə əkin üçün, nə də fərdi yaşayış evi üçün əlverişlidir. Çünki ərazi dərə sahilində yerləşdiyi üçün buradakı torpaqdan digər məqsədlə fayda götürmək mümkün deyil. Amma mən düşünürdüm ki, bu “söntəmsiz ərazidə” açıq istirahət üçün bir məkan düzəltmək olar. Maraqlı burasıdır ki, fikrimi kimə dedimsə, heç kim buna inanmadı. Ərazi kiçik olsa da, yer seçimində qərarım qəti idi və bu fikrimi Culfa Rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə də bildirdim. Hər iki dövlət qurumu bu təşəbbüsümü yüksək qiymətləndirdi və lazımi dəstək üçün hazır olduqlarını bildirdi. Qısa bir müddətdə Sahibkarlığın İnkişafı Fondundan 40 min manat kredit götürərək işə başladım.



*– Hazırda burada hansı işlər görülür, istərdim bu haqda oxuculara məlumat verəsiniz.*

– İlkin olaraq biz burada yeməklərin hazırlanması üçün mətbəx, əlavə olaraq yemək və istirahət üçün iki otaq, eyni zamanda yuxarıdan aşağıya doğru 6 ədəd üstüörtülü, ancaq ətrafı açıq söhbətgah tipində oturma məkanı düzəltdik. Bu cür məkanlar bir-birinə pilləkənlər vasitəsilə birləşdirilib. Yəni kənardan baxdıqda, bütün oturma yerləri dərə yatağının sahilində sərt maili ərazidə qurulub. Bundan əlavə, əraziyə yeni bulaq suyu çəkmişik, sanitar qovşaqlar tikmişik, hərəkət üçün səkilər salmışıq. Əlincə çayından axan suyun şırıltısı isə burada daim eşidilir. Bu da istirahət edənlərə ayrı bir zövq verir.







*– Gəlin məsələnin bir az da mahiyyətinə varaq. Yəni oxucularımızda belə bir təəssürat yaranmasın ki, hansısa bir mənzərəli yerdə, belə deyək də, yeməkxanatipli bir məkan açdın, deməli, bu elə turizmdir. Təbii ki, qastronomiya turizmin ayrılmaz hissəsidir, ancaq konsepsiya olaraq fəaliyyətinizdə nəyi görə biləcəyik?*

– Söhbətin əvvəlində də qeyd etdiyim kimi, bizim kəndə gələnlər, əsasən, sakit, havası və suyu təmiz təbiət axtarışında olanlar, kənd məhsullarına üstünlük verənlərdir. Fikir vermişəm, bura gələnlərin əksəriyyəti almaq üçün Ləkətağ balını, pendirini, almasını və digər məhsulları soruşurlar. Bizdə hazırlanan yeməklərin də hamısı kəndimizin yerli məhsullarındandır. Həmçinin bu gün kəndimizdə xeyli sayda ailə təsərrüfatları var. Nəzərdə tutmuşuq ki, həmin təsərrüfatlarda hazırlanan məhsulların burada satışını təşkil edək ki, gələn qonaqlar bu məhsullardan alıb apara bilsinlər. Bundan əlavə, yay fəslində insanların sərinləşdirici qidalara ehtiyacını nəzərə alıb təzə dondurma satışı da təşkil ediləcək. Fərqli olsun deyə, Maraş dondurması üzərində dayandıq. Bunun üçün Türkiyənin Kahramanmaraş şəhərindən dondurma ustası dəvət etmişik və burada fəaliyyət göstərəcək. Dondurmada istifadə olunan süd hər gün kənddən aldığımız yerli süd olacaq. Eyni zamanda nəzərdə tutmuşuq ki, türkiyəli usta kənddəki gənclərdən bir neçəsinə bu işi öyrətsin ki, sonra gedəndə bizim özümüzün dondurmaçıları olsun. İstirahətə gələnlər üçün at və ya fayton gəzintilərini təşkil etmək də planımızda var və bu sahədə hazırlıqlar gedir.

*– Yəni məqsəd insanların mənalı istirahətini təşkil etməyə maksimum səy göstərməkdir.*

– Bəli, əsas odur ki, insanların istirahəti üçün lazımi şərait olsun. Şükürlər olsun ki, bu gün dövlətimiz tərəfindən bütün sahələrə qayğı göstərilir, kəndlərimiz abadlaşdırılır, təbiətimiz qorunur, gözəlləşir, təmizliyə çox ciddi əməl olunur. Belə olan tərzdə niyə istirahət üçün kəndlərimizi seçməyək?

*– Əlbəttə, niyə də seçməyək, daxili turizmin inkişafı elə bu cür kiçik addımlardan başlayır. Dövlətin bu sahəyə dəstəyi göz qabağındadır, amma sizin kimi insanların da təşəbbüsləri burada böyük rol oynayır.*

– Mən hər zaman muxtar respublikamızda turizmin inkişafı ilə bağlı atılan addımları yaxından izləyirəm. Sizin də bildiyiniz kimi, hörmətli Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı” da mövcuddur. Çalışırıq ki, dövlətimizin də qayğısı ilə başladığımız bu layihə ilə turizmin inkişafında bizim də payımız olsun. Qəzetiniz vasitəsilə də bizə hərtərəfli dəstək göstərən dövlətimizə, aidiyyəti qurumlara minnətdarlığımı bildirirəm.

*– Biz də sizə işlərinizdə uğurlar arzu edirik.*

*Yazının əvvəlində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tuizmin inkişafı ilə bağlı bir sitatını qeyd etmişdik. Həmin sitatda sabitlik, iqtisadi inkişaf, zəngin tarixi-mədəni irs, ekoloji cəhətdən təmiz qida məhsulları və yaradılan şərait Naxçıvanda turizmin inkişafının şərtlərindən əsas amillər kimi səciyyələndirilmişdir. Həqiqətən də, sabitlik, inkişaf, dövlət qayğısı olan yerdə istənilən nəticəyə gəlmək mümkündür. Yetər ki, təşəbbüskarlıq və aydın məqsəd olsun. Elə Ləkətağ kənd sakini Dünyamalı Hacıyevin fəaliyyətində olduğu kimi.*

✍ **Səbuhi HƏSƏNOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

# Shoaib Khalil: “Ətrafımdakı bütün dostlarıma səyahət üçün Naxçıvanı seçməyi tövsiyə edəcəyəm”



*Naxçıvan Muxtar Respublikası füsunkar gözəlliyi və zəngin təbii sərvətləri, müasir infrastrukturu ilə turistlərin sevimli istirahət və əyləncə məkanına çevrilib. Qədim diyarımıza səfər edən ABŞ vətəndaşı Shoaib Khalil və onun həyat yoldaşı Kashmala Khalil də bu günlərdə Naxçıvanda olub və buradan zəngin təəssüratlarla ayrılıblar.*

Əslən pakistanlı olan Shoaib Khalil hava gəmilərinin elektrik sistemləri üzrə tanınmış mütəxəssisdir. Shoaib Khalil və Kashmala Khalil bu ilin may ayında ailə həyatı qurublar. Sosial şəbəkələrdə Azərbaycanla və onun Naxçıvan Muxtar Respublikası ilə bağlı paylaşımları gördükdən sonra qərara gəliblər ki, evliliklərinin ilk ayında ölkəmizə səfər etsinlər. Bu məqsədlə əvvəlcə Bakı şəhərinə, sonra isə Naxçıvana gəliblər.

Shoaib Khalil “Şərq qapısı” qəzetinə müsahibəsində dedi ki, Naxçıvanda Nuh Peyğəmbərin türbəsini ziyarət edərkən bu diyarın çox qədim tarixə malik olduğu həqiqətini bir daha dərk edib: “Naxçıvanqala kimi tarixi abidə, Yusif Küseyir oğlu və Möminə xatın türbələri qədim Naxçıvanda mədəniyyətin inkişafından xəbər verir. Duzdağ Fizioterapiya Mərkəzi təbii şəfa mənbəyi, Əshabi-kəhf ziyarətgahı bəşəriyyətin inam yeri, Əlincəqala isə Azərbaycan xalqının məğlubedilməzliyinin simvoludur. Göygöl, Batabat təbii gözəlliyi ilə insanı valeh edir. Ümumilikdə, Naxçıvan qədim mədəniyyət mərkəzi, bəşəriyyətin inam yeri və məğlubedilməzlik simvoludur”.





O vurğuladı ki, muxtar respublikada yol infrastrukturu mükəmməl qurulub. Şəhər və kəndlərdə inşa olunan binalar müasir memarlıq üslubu ilə diqqəti cəlb edir. Əhalinin elektrik və təbii qazla təchizatı çox yüksək səviyyədədir. Naxçıvanın ən ucqar yaşayış məntəqələri də su, elektrik və təbii qazla təchiz olunub, burada müasir məktəb binaları, kənd mərkəzləri, həkim ambulatoriyaları tikilib. Hər bir yerdə insanların təmizliyə, səliqə-sahmana verdiyi önəm hiss olunur. Muxtar respublikanın bütün yaşayış məntəqələri çox təmiz, abad və gözəldir.

Shoaib Khalil diyarımızın turizm əhəmiyyətliliyi ilə bağlı bu fikirlərini də bizimlə bölüşdü: “Muxtar respublikanı fərqləndirən əsas cəhətlərdən biri də burada insanın özünü çox rahat və təhlükəsiz şəraitdə hiss etməsidir. Naxçıvanda cəmiyyət, insanların davranışı və qayda-qanun bu inamı aşılayır. Bunun özü çox böyük uğurdur və əminəm ki, Naxçıvanın misilsiz gözəlliyi ilə yanaşı, həm də sakit və cinayətsiz region olması gələcəkdə bizim kimi turistlərin daha çox diqqətini cəlb edəcək.

Naxçıvanda 5 gün qaldıqlarını bildirən qonaq qeyd etdi ki, bu gözəl diyarı gəzmək, görmək üçün bu müddət çox azdır: “Muxtar respublikanın tarixi abidələri, gözəl təbiəti ilə yaxından tanış olmaq, burada rahat istirahət etmək üçün ən azı insana 15 gün vaxt lazımdır. Ona görə də düşünürük ki, gələcəkdə Naxçıvana bir daha gələk”.

Blokada vəziyyətində uzun illərdir, yaşayan bir diyarın bu səviyyədə inkişafından təəccübləndiyini də gizlətməyən Shoaib Khalil burada əldə edilən uğurların möcüzə olduğunu vurğuladı. O, buradakı qonaqpərvərlikdən də ürəkdolusu söhbət açdı: “Naxçıvanda özümüzü doğma evimizdəki kimi hiss etdik. Çünki buranın insanları istiqanlı, qonaqpərvər və mehribandırlar. Hər yerdə qonağa hörmətin nümunəsini gördük. Ətrafımdakı bütün dostlarıma səyahət üçün Naxçıvanı seçməyi tövsiyə edəcəyəm. Gərək, hər kəs gəlib bu gözəllikləri görsün. Biz muxtar respublikaya valeh olduq. Buna görə də mən Naxçıvana səfərimlə bağlı geniş məqalə də yazmağı düşünürəm”.

✍ **Aytac CƏFƏRLİ**

Yurdumuzun nemətləri

# Dağlarımızın ətri — *kəklikotu*

***Həmişə qürurla bəhs etdiyimiz Naxçıvan təbiəti min bir dərdin dərmanı olan müalicəvi, həm də süfrələrimizə gözəllik, səhhətimizə sağlamlıq bəxş edən bitkilərlə zəngindir. Bunlardan biri də kəklikotudur. İlin bu çağında torpaqdan boy qaldırıb dağların sinəsinə yayılan bu bitkinin ətri hamını valeh edir.***

Xalq təbabətində bu gün də, əsasən, soyuqdəymə dərmanı kimi istifadə edilən kəklikotu hər bir naxçıvanlı ailəsinin çay süfrəsinin əvəzedilməz təamıdır. Deyirlər ki, yaz gəldimi, samovar salınıb, dəmlənən çaya kəklikotu qatmadınsa, nə ləzzəti? Hər kəs tərəfindən sevilən ədviyyat kimi kəklikotunun Naxçıvanda bütün növlərinə rast gəlirik. Ancaq qızılgül, limon ətirli olan kəklikotudan daha çox istifadə edilir. Bəzən bu bitkinin adına “kəkotu” deyənlərə də təsadüf edirik. Lakin ümummilli liderimiz Naxçıvana səfərlərinin birində kəklikotulu çay süfrəsi arxasında deyib: ***“Bu ota vaxtilə Bakıda ruslar kəkotu adını qoyublar. Lakin kəklikotudur. Kəklik yeyən ot olduğuna görə, adı da kəklikotudur”.***

Kəklikotunun dərman kimi istifadəsi IV-V əsrlərə gedib çıxır. Tədqiqatlara əsasən ovaxtlar muxtar respublika ərazisində yaşayan qədim türk tayfaları bu bitkinin soyuqdəymədən yaranan xəstəliklərdə faydalı olduğunu biliblər. XVII əsrdə yaşamış Azərbaycan həkimi və alimi Hacı Süleyman İrəvani onun müalicəvi əhəmiyyəti haqqında belə yazıb: “Kəklikotu iştahanı yaxşılaşdırır, həzmə kömək edir, mədəni və ciyəri təmizləyir, ağciyər üçün xeyirlidir. Çiçəyinin sirkə və duzla qarışığını ödqovucu vasitə kimi qəbul etmək məsləhətdir. Bu bitkinin həlimi qarında küt ağrıları götürür, həzmə kömək edir. Əncirlə qarışdırılmış həlimi öskürəyə faydalıdır. Təzə pendirlə yeyildikdə insanı kökəldir. Göz qarasına ləkə düşərsə, oraya kəklikotu şirəsini damcılatmaq lazımdır. Yarpağı bal ilə ovxalanaraq məlhəmi bərk şişlərin üzərinə sürtüldükdə şişləri sorur”.



Bu qiymətli bitkinin daha çox yayıldığı bölgələrimizdən biri də Kəngərli rayonunun dağlarıdır. Bu dağlarda kəklikotunun bir çox növləri, o cümlədən qızılgül və limon ətirlisi bitir. Yaxın günlərdə rayonun Qarabağlar kənd sakini Fuad Nəcəfovla elə kəklikotu yığa-yığa həmsöhbət olduq:




– Min dərd varsa, min bir də dərmanı var, – deyən atalarımız qədim dövrlərdən xəstəlikləri bitkilərdən hazırladıqları dərmanlarla müalicə ediblər. Bu bitkilər haqqında məlumatlar nəsildən-nəslə şifahi şəkildə keçib. Dünyagörmüşlər deyirlər ki, sirrinə-sehrinə bələd olduğumuz bitkilərdən dəmlənən çayı süfrələrimizdən əskik etməsək, uzunömürlü olarıq. Doğulub böyüdüyüm kəndin hər dağında, dərəsində bitən bitkilər can dərmanıdır. Hələ uşaq çağlarımdan nənəmdən, babamdan öyrənmişəm bunu. Amma bu iş elə kənardan göründüyü kimi də asan deyil. Hər bitkinin özünəməxsus xüsusiyyəti var, bunu bilməsən, kortəbii şəkildə istifadə etsən, xeyrini görə bilməzsən. Ona görə də bitkiləri nə qədər yaxşı tanısan, bir o qədər də faydalana bilərsən. Fuad deyir ki, hər dərman bitkisinin özünün toplanma vaxtı var. Onu düzgün formada toplayıb qurutmaq, saxlamaq lazımdır. Elə bu kəklikotu kimi. Bu bitkinin yığılma vaxtı may ayından başlasa da, muxtar respublikamızın bəzi rayon və kəndlərində dağların qarı bir az gec əridiyi üçün oralarda iyun ayından etibarən kəklikotu yığımı başlayır.

Həmsöhbətim bildirir ki, may-iyun aylarında toplanan kəklikotunu qurudaraq da istifadə edirlər. Evə gələn qonaqlara, uzaqda yaşayan qohumlara ətirli kəklikotudan sovqat tuturlar. Elindən, doğma torpağından uzaqda olan hər kəs üçün doğma yurdunun dağlarında bitən kəklikotu ən gözəl hədiyyədir. Çünki onda bu dağların ətri var. Hətta qurudulmuş kəklikotunu paketləyib satışa da çıxarırlar. Bununla da həm dağlara qalxıb yerindəcə bu məhsulu toplaya bilməyənlərin işini asanlaşdırır, həm də ailə büdcələrinə müəyyən gəlir əlavə etmiş olurlar.

Fuadın dediyinə görə, bu bitkinin çiçəyindən və ən körpə yarpaqlarından mürəbbə və kompot da hazırlayırlar. Bu mürəbbə can dərmanıdır. Bunu qışda çaya qatıb içmək çox xeyir verir. Bununla yanaşı, kəklikotudan hazırlanan mürəbbə və kompotlar bu gün muxtar respublikamıza gələn turistlərin də marağına səbəb olur.

Son olaraq onu da deyək ki, bu dağlar hər zaman bizi düşməndən, soyuqdan, borandan, seldən, tufandan qoruduğu kimi, öz qoynunda bitən şəfalı bitkiləri ilə dərdlərimizə də dərman olub. Yaşlı insanlar deyirlər ki, əvvəllər bir evdə xəstə olanda həkim tapmaq imkanları çox az idi. Türkəçarə vasitələrlə bir çox xəstəliklərin qarşısını almağa çalışardılar. Ən çox da soyuq fəsillərdə kəklikotu çayı köməklərinə yetirmiş. İlin-günün bu vaxtı kəklikotu çayı içmək insana çox xoş gəlir.

“Şəfa” Özəl Tibb Mərkəzinin həkimi – dietoloq Pərvanə Qəhrəmanova ilə də həmsöhbət olduq: İbn Sina yazır ki, kəklikotunu çeynəmək diş ağrısını yox edir, damaqları möhkəmləndirir. Sakitləşdirici təsirə malikdir, immuniteti artırır. Soyuqdəymə, ağciyər, mədə-bağırsaq xəstəliklərinin müalicəsində də istifadə olunur. İştahanı yaxşılaşdırır, həzmə kömək edir. Ən yaxşı ağrıkəsicidir. Revmatizmi olan xəstələrin müalicəsində əvəzsizdir. Bəlğəmgətirici təsirə malikdir, qripə qarşı faydalıdır. Spazmalara, yaraların sağalmasına, şəkər xəstəliyinə, eyni zamanda stresə qarşı faydalıdır. Yuxusuzluğu aradan qaldırır. Qan dövranını nizamlayır.

Kəklikotu dəmləməsi qan dövranını yaxşılaşdırdığı üçün insanda xoş əhvali-ruhiyyə yaratmaq, sinir sistemini sakitləşdirmək qabiliyyətinə malikdir. Dərinin parlaqlığı, eləcə də yaraların sağalması üçün onun məlhəmi çox xeyirlidir. Məsələn, kəklikotu və baldan hazırlanmış məlhəmi zəhərli həşərat sancmaları zamanı dəriyə çəkilərsə, tezliklə kömək edər. Lakin hər bitki kimi, kəklikotundan da düzgün istifadə etməsəniz, xeyrindən çox ziyan görərsiniz. Həddindən çox qəbul edildikdə arterial təzyiqin qalxmasına səbəb olur və allergiyası olanların dərilərində qırmızı səpgilər əmələ gətirir. Ona görə də bitkilərin dilini bilmək lazımdır.

*Hörmətli oxucu! Öz zəhmətinlə bu bitkini toplamaq üçün dağlara qalxmaq gec deyil...*

**✍ Telli MƏMMƏDOVA**

# Təbii sərvətimiz olan meşələri yangından qoruyaq

*Gündən-günə gözəlləşən muxtar respublikamızda yeni salınan meşə zolaqları qədim yurdumuzun füsunkar hüsnünə ayrı bir gözəllik bəxş edir. Təbiətə xüsusi yaraşıq verən bu meşələri hamılıqla qoruyub saxlamalı və hər bir əkilən ağaca qayğı göstərməliyik. İsti günlərdə ehtimalı daha çox olan xoşagəlməz hadisələrdən biri meşə yanğınlarıdır. Belə hadisələrin qarşısının alınmasında aidiyyəti dövlət orqanları ilə yanaşı, vətəndaşların da üzərlərinə çox mühüm vəzifələr düşür.*



Meşələri yanğından qorumaq üçün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi vətəndaşlara yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etmələrini tövsiyə edir.

Meşələrdə yanğın təhlükəsizliyinə cavabdeh olan şəxslər, o cümlədən meşə-mühafizə mühəndisləri yanğınsöndürmə texnikalarını və vasitələrini, təbii və süni su mənbələrinin, keçidlərin, yolların vəziyyətini daim yoxlamalı, mütəmadi olaraq işçilərlə yanğınsöndürmə avadanlıqlarından düzgün istifadə edilməsi ilə əlaqədar məşqlər keçirməlidirlər. Meşə zolaqlarında yanğınların baş verməsinə səbəb ola bilən amillərin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, həmçinin yanğınsöndürmə vasitələrinə vaxtlıvaxtında texniki xidmət göstərilməsi də zəruridir.

Meşə təsərrüfatında yanğın təhlükəsizliyinə məsul olan şəxslər yanğın təhlükəsizliyi qaydalarına riayət olunmasına nəzarət məqsədilə meşə sahələrinə və zolaqlarına vaxtaşırı baxış keçirməli, yanğın baş verən zaman yanğınsöndürmə xidmətinin hadisə yerinə çağırılması üçün tədbirlər görməli, əlaltı vasitələrdən istifadə etməklə yanğını söndürməyi təşkil etməlidirlər.

Meşə zolaqlarında baş verən 10 yanğından 9-u odla ehtiyatsız davranmadan və ya meşədə iş və istirahət zamanı insanların yanğın təhlükəsizliyi qaydalarını pozmaları səbəbindən baş verir. Xüsusi olaraq qeyd edək ki, meşədə və ya meşəətrafı sahələrdə yandırılan ocaq və onun tam söndürülmədən nəzarətsiz buraxılması kütləvi meşə yanğınına səbəb ola bilər. Söndürülməyən siqaret kötüyünün meşəyə atılması, maşınların mühərrikindən qopan qığılcımlar da yanğın törədə bilir. Meşələrə yanacaq-sürtkü materiallarına və digər yanar mayelərə bulaşan materiallar atmaq olmaz. İstirahət edən zaman şüşə qabları, şüşə qırıntılarını meşəyə atmaq yolverilməzdir. Əks halda Günəş şüasından təsirlənən şüşə qablar və şüşə qırıntıları yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Müəyyən olunmayan yerlərdə traktor və digər daxiliyanma mühərrikli aqreqatların yanacaqla doldurulması, eləcə də onların yaxınlığında ocaq yandırılması yolverilməzdir. Yanğın təhlükəsi olan meşə sahələri və meşə yolları yanğın əleyhinə 2-3 metr enində şumlanmalı, meşənin quru ot və odun qalıqlarından təmizlənməsi təmin edilməlidir. Meşədən və ya meşə zolağından keçən avtomobil yollarının hər iki tərəfi 10 metr məsafədə yanar materiallardan təmizlənməli, yanğına qarşı minerallaşdırılmayan zolaqlar çəkilməlidir.

Cavabdeh şəxslər tərəfindən vaxtaşırı olaraq meşədaxili və ətraf sahələr yoxlanılmalı, yanğın və ya alışma hadisəsi baş verən zaman mövcud əlaltı vasitələrdən istifadə edilməlidir. Yolda hərəkət edən nəqliyyat vasitələri istifadəçiləri və digər vətəndaşlar tərəfindən siqaret qalığının söndürülməmiş vəziyyətdə yerə atılması meşə yanğınlarının baş verməsinə səbəb ola bilər. Hər bir vətəndaş bilməlidir ki, meşələrdə yanğın təhlükəsizliyi qaydalarına riayət etməklə o, muxtar respublikamızın iqtisadiyyatının inkişafına və öz sağlamlığına xidmət etmiş olar.

Meşə və ya meşə zolaqlarında yanğın hadisəsi baş verərsə, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin *“112”* qaynar telefon xəttinə və ya Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin *“101”* xidmətinə zəng etməyi unutmayın.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Tələbə Elmi Cəmiyyətinin yekun konfransı keçirilib



“Naxçıvan” Universitetində keçirilən tədbirdə çıxış edən ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva bildirib ki, tələbələrin TEC xətti ilə elmi-tədqiqat işlərinə cəlb edilməsi, magistratura, doktorantura və dissertantura yolu ilə elmi kadr hazırlığının keyfiyyətcə yeni səviyyəyə qaldırılması, mütəmadi olaraq gənc tədqiqatçılar üçün elmi-praktik konfransların təşkili tələbələrin ölkə daxilində beynəlxalq layihələrdə iştirak etməsi, bir sözlə, bu istiqamətdə atılan hər bir addım bugünkü Tələbə Elmi Cəmiyyəti üzvlərinin sabahın alimləri kimi yetişməsi işinə xidmət edir.

Hər bir tədqiqatçı tələbəyə təhsil və tədqiqat fəaliyyətində uğurlar arzulayan Nurlana Əliyeva cari tədris ilində 125-dək tələbənin, 80 nəfər müəllimin elmi rəhbərliyi ilə TEC xətti ilə elmi-tədqiqat fəaliyyətinə cəlb olunduğunu tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Konfransın plenar iclasında 10 tələbənin elmi işi üzrə məruzələri dinlənilib. Universitetin tədqiqatçı tələbələrinin aktual mövzularda təqdim etdikləri məruzələr konfrans iştirakçılarının marağına səbəb olub.

Dinlənilən məruzələrdən ən yaxşı işlər I, II və III yerlərə layiq görülüb, aktuallığı, işlənmə dərəcəsi və təqdimatı ilə seçilən digər işlərdən bəziləri çapa tövsiyə edilib. Qaliblərə mükafatlar verilib.

***“Naxçıvan” Universitetinin mətbuat xidməti***

## Dövlət teleradiolarında işə qəbul üçün esse imtahanı olub

*Naxçıvan Muxtar Respublikasının dövlət teleradiolarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin esse imtahanı keçirilib. Müsabiqəyə çıxarılmış 7 vakant vəzifənin tutulması üçün 7 namizəd qeydiyyatdan keçib.*

İmtahan başlanmazdan əvvəl iştirakçılar imtahan qaydaları haqqında məlumatlandırılıb, iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən “Milli Qurtuluş Günü dövlətçilik tariximizdə” mövzusu təqdim edilib. Yazı işləri yoxlanılarkən namizədlərin fikirlərini məntiqi ardıcıllıqla ifadə etmək, abzaslarla fərqləndirmək, təhliletmə, tətbiqetmə, ümumiləşdirmə və məntiqi nəticə çıxarma qabiliyyətləri, fikir və düşüncələrini anlaşıqlı, məntiqli və aydın, ədəbi dilin normalarına uyğun şəkildə ifadəetmə meyarları nəzərə alınaraq yaradıcılıq qabiliyyətləri qiymətləndirilib.

Esse mərhələsində iştirak etmək üçün sənəd təqdim etmiş 7 namizədin hamısı imtahan verib, onlardan 2-si müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

### İtmişdir

Şərur rayon Məmmədsabir kənd sakini Atakişiyev Ramiz Yusif oğlunun adına verilmiş JN-198 inventar nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon Çalxanqala kənd sakini Dünyamalıyev Hasil Əlabbas oğlunun adına olan JN-175A inventar nömrəli, 10300018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Zeyvə kənd sakini İsmayılov Tahir İsmayıl oğlunun adına olan JN-1170A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 488